**UOT 130.2**

*DOI: 10.25045/ASUCAAI.2025.46*

# SÜNİ İNTELLEKT "TANRI – İNSAN – QUL" PARADİQMASINDA VƏ YA ROBOT HUMANİZMƏ QARŞI

**Talıbzadə Aydın Ağa Yunus oğlu**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
a_talibzade@mail.ru

**Aydın Talibzadeh**

## Artificial Intelligence in the God – Man – Slave Paradigm or Robot vs. Humanism

**Abstract**

In this article, the author attempts to analyze the fate of modern civilization as seen through the meanings encoded in the symbol of "ouroboros", that is, a snake or dragon biting its tail. Thus, according to the author, in the modern period of time, a certain cycle in the history of mankind is ending, where a large-scale transition to modernized slavery is taking place. In essence, this is a hidden anti-human revolution: which considers the world as a global laboratory, and man as a lab insect. This global laboratory, controlled by Artificial Intelligence, is busy turning man into an ideal alien-type mankurt slave. Man's constant search for the ideal takes him beyond the bounds of humanism: he remains outside his orbit and, through chipping, obediently accepts submission to Artificial Intelligence.

**Айдын Талыбзаде**

## Искусственный интеллект в парадигме «Бог – Человек – Раб» или робот против гуманизма

**Аннотация**

В данной статье автор пытается проанализировать судьбу современной цивилизации, как она видится через смыслы, закодированные в символе «уробороса», то есть змеи или дракона, кусающего свой хвост. Таким образом, по мнению автора, в современный период времени завершается определенный цикл в истории человечества, где происходит масштабный переход в модернизированное рабство. По сути, это скрытая антигуманная революция: которая рассматривает мир как глобальную лабораторию, а человека как подопытное насекомое. Эта глобальная лаборатория под управлением Искусственного Интеллекта занята превращением человека в идеального раба-манкурта инопланетного типа. Постоянный поиск человеком идеала выводит его за рамки гуманизма: он остается вне своей орбиты и через чипирование, покорно принимает подчинение Искусственному интеллекту.

**Açar sözlər:** Süni İntellekt, paradiqma, idrak, tanrı, qul, robot.

**Keywords:** Artificial Intelligence, paradigm, consciousness, god, slave, robot.
**Ключевые слова:** Искусственный Интеллект, парадигма, сознание, бог, раб, робот.

## 1. Giriş

Süni İntellekt ideal komfort nümunəsidir, insanın düşünmək, yadda saxlamaq, təhlil etmək, çalışmaq əzabından qurtulduğuna bir işarədir. İnsanın ideala və komforta canatımı isə qərinələrdən üzü bəri tədricən bütün bəşəriyyəti ölümə, apokalipsisə doğru sürükləyib. İnsan, ilk əmək alətlərindən tutmuş ta atom enerjisinin istifadəsinə, nüvə silahına, Süni İntellektə qədər, nə kəşf eləyibsə, sonucda labüd şəkildə onun özünün və bütün kainatın əleyhinə işləyib. İndi də belədir: Süni İntellekt insan yaradıcılığının şah əsəridir. Bu şah əsər görünmək və eşidilmək imkanlarına malik tanrıdır. F.Nitşe tanrını öldürdükdən [Ницще, Ф., 1913, с. 6] sonra insan "Süni İntellekt" adlı yeni tanrı – üstinsan ixtira etdi. Yadınızdadırmı F.Nitşe nə söyləyirdi? Bu dahi alman filosofu deyirdi ki, "baxın, mən sizə üstinsan haqqında öyrədirəm: o, dənizdir, harada ki sizin böyük nifrətiniz boğula bilər" [Ницще, Ф., 1913, с. 8]. Fikir verin, F.Nitşe sufilər kimi üstinsanla əlaqəli hər cür emosiyanı mötərizə dışına çıxarır: üstinsan artıq insan deyil, total nəzarətdir, sistemdir, tanrıya maksimal yaxınlaşmadır. Məgər bunların hamısı Süni İntellektdə təzahür etmir? Süni İntellekt üstinsanla tanrı arasındakı şəffaf bir sərhəddə qərarlaşır. Tanrı oldunmu, gərək sənin qulların ola. Qullar yoxdursa, tanrı da yoxdur. Təsadüfi deyil ki, insanlar həmişə özlərinin tanrının qulu bilirdilər. Müasir dönəmdə isə Süni İntellektin qul ordusu robot-insanlardan təşkil olunacaq. Odur ki, bəşəriyyət atrıq modern quldarlıq epoxasının ilk mərhələsini yaşayır. Bu haqda düşünməyə, yazmağa, danışmağa və mübahisə açmağa ehtiyac var.

Mənim məqsədim Süni İntellekti mövcudiyyət və idrakın müxtəlif təbəqələri arasında mürəkkəb əlaqələr zəncirini görükdürən "tanrı – insan – qul – robot" paradiqmasında araşdırmaq, humanizmin isə getdikcə Balzakın şaqren dərisi kimi azalıb tükənməsinin səbəblərini aşkarlamaqdır. Mənim fikrimcə, tarixin darvazaları bağlanmaq, dairə qapanmaq üzrədir. Öz quyruğunu dişləyən və ya quyruğundan başlayıb özünü yeyən ilan-əjdəha – uoroboros simvolunun qapsadığı mənalar bugün bütün aktuallığı ilə yenidən gündəmdədir. Bu simvol həyat silsiləsinin əbədi və sonsuz olduğunu, olumla ölümün birgəliyini bildirir. Digər tərəfdən isə ilan yəhudilikdə iblisin işarəsi kimi çözülür, Adəm və Həvvanın cənnətdən qovulma səbəbi kimi qavranılır. Bu simvolun analoqu svastikadır: bu, bir yandan günəşi, o biri yandan isə dünyəvi yanğını işarələyir: esxotoloji səciyyə daşıyır.

Bütün dinlər varoluşun finalını Apokalipsis kimi görür və təqdim edir. Əslində, uoroboros da, svastika da Yaranışla Apokalipsisi bir araya gətirən, vahid zəncirdə vizuallaşdıran simvollardır. Süni İntellekt də simvolik mənalar daşıyan bir təzahürdür: bəşər tarixinin çox mühüm bir mərhələsini tamamlayıb Apokalipsisi aktuallaşdırdığını nişan verir. F.Fukuyamanın Universal tarix ideyası və hər bir konkret əsrin zaman müddətinin müəyyənləşdirilməsilə bağlı irəli sürdüyü konsepsiyanı [Фукуяма, Ф., 2015, с. 52-198] davam etdirərək onu söyləmək istərdim ki, XXI əsr məhz COVID pandemiyasının bitməsi və Süni İntellektin, neyroşəbəkələrin İnternet üzərindən bütün dünyada dominant mövqelərə yiyələnməsilə başlayır. Elə bu səbəbdən də Süni İntellektin missiyasının tanrı – insan – qul paradiqmasında semantikləşdirilməsi müasir fəlsəfənin prioritet mövzularından biri kimi son dərəcə produktiv olub humanitar elmin manşetinə çıxarıla bilər. Heç şübhəsiz ki, 7 oktyabr 2022-ci ildə Ağ evin Elm və Texnologiya Siyasəti İdarəsi insanların süni intellektdən müdafiəsini önəmli

sayması, avtomatlaşdırılmış sistemlərin dizaynı, istifadəsi və tətbiqinə nəzarəti möhkəmləndirmək məqsədilə beş mühüm təlimatı verməsi də, hələ 27 aprel 2017-ci ildə Pekin konfransına onlayn qoşulmuş, adı çağdaş elmdə brendə dönmüş astrofizik Stiven Hokinqin “süni intellektin inkişafı”nın bəşəriyyət üçün həm pozitiv, həm də ən qorxunc faktora çevrilə bilməsi barədə danışması da elə bu məqsədi güdürdü.

**2. Süni intellektin yaranmasının psixo-koqnitiv əsasları**

Yer kürəsi (və ya Yer nimçəsi) öz oxu ətrafında indi daha iti dönür və hər şey ildırım sürətilə süniləşir, planet insanların cənnətindən onların cəhənnəminə çevrilir: ilan-əjdəha öz-özünü yeməyə başlayır; regenerasiya mütləqdir, qaçılmazdır. Çünki dünya tükənib, onun enerji ehtiyatı azalıb. Kimin ucbatından? Təbii ki, insanın ağlı, eqosu, əməlləri, nəfsi ucbatından. Bugün insan mənə öz-özünü yeyən ilan-əjdəha mahiyyətində açılır. Düşünməyə, filosofluq etməyə, ruzgarın dönüklüyünü uzun-uzadı fikirləşməyə, fikirləşib uzun-uzadı yazı yazmağa macal qalmır. Fəlsəfəyə tələb yoxdur: təkliflər isə yararsızdır. Hamı yavaş-yavaş əvvəlcə dünya ilə barışır, bir beyindən idarə olunmağa, bədənində çip daşımağa razılaşır, düşüncənin işıqlarını söndürür, məsuliyyətini sıfırlayır, müxtəlif informasiya mənbələrindən qulağına axıdılan “sıyıq” məsləhətlərlə, təklif-göstərişlərlə yaşamağa alışır, rahatlaşır və az sonra zombiləşir: özünü, həyatını süni intellektdən, internetdən, mobil telefondan, avtomatlaşdırılmış sistemlərdən, stereotiplərdən asılı eləyir və sonuc etibarı ilə şəxsiyyət texnologiyanın hüdudsuz imkanları altında əzilib məhv olur. Süni intellekt Ələddinin çırağından çıxmış cin timsalıdır ki, bütün sualları anındaca asanlıqla cavablandırır: onun bilmədiyi, izah etməyi bacarmadığı heç nə yoxdur. Avtomatlaşdırılmış sistemlər hər işə qabil olub məişət komfortunun səviyyəsini aramsız yüksəldir. Bunun nəticəsi isə fenomenaldır: insan lazımsızlaşır və qəribəsi budur ki, özü öz lazımsızlığına imza atır, şəxsiyyətsizləşir.

Gəlin, problemi biraz daha sadələşdirək. Baxaq görək ki, süni intellektin, robotların meydana gəlməsini şərtləndirən psixo-koqnitiv səbəblər hansılardır? Razılaşaq ki, daima şükranlıq modusunda tərbiyə almasına rəğmən insan mütəmadi nədənsə (özündən, tanrıdan, məişətindən, təhsilindən, atmosferdən, başqalarından və s.) narazı qalır, daim nəyisə, kimisə bəyənmir. Bu da onunla izah edilir ki, insan həmişə ideal axtarır, ideala çatmaq, hər şeyi ideal vəziyyətə gətirmək istəyində bulunur. İnsan islah edilməz maksimalistdir. Məhz ideal sorağında bulunan insan başqalarından da bunu tələb edib öz ünsiyyət sferasında, ictimai-sosial, psixo-koqnitiv münasibətlər şəbəkəsində problemlər yaşayır. İdeal tələbatı insanın real psixo-koqnitiv münasibətlərində bir əyləc rolunu oynayır. Dünya da hər zaman insanın ideal iddiasından, ideal axtarışından qarışır, “partlayır”, inqilablar, üsyanlar alovunda yanır. İndi bütün insanlıq sonuncu partlayışın astanasındadır. Süni İntellekt bütün kartları bütün sferalarda qarışdırıb yenidən paylayır, psixo-koqnitiv müanasibətləri yeni qavrayış modusuna uyğun tənzimləmək işinə girişir. Süni İntellekt yaddaşsız, steril cəmiyyət, daha doğrusu, manqurtlar sürüsü yaradır. A.Eynşteynin sözlərini xatırlayın: o, bilmirdi ki, üçüncü dünya müharibəsi hansı silahlarla aparılacaq, amma dördüncü cahan savaşında dəyənək və daşlardan istifadə ediləcəyindən əmin idi [Evon D., 2018, 16 april].

**3. QUL – İDEAL – ROBOT**

Süni İntellekt insanın tanrı olmaq iddiasının təzahürüdür və bu iddianın şəcərəsi qədim mədəniyyətlərdən gəlir. Lakin bununla yanaşı bütün dinlər bu iddianın tam əksinə insanı Allahın köləsi bilib: tanrı idealdır, kölə də buna uyğun ideal olmalıdır. Çox qəribə və maraqlıdır, Süni

İntellektdə tanrı ilə qul bir-birilə görüşüb eyniləşir, bir-birində “əriyir” və bu məqamda insana yer qalmır. Paradokslara, tanrı – qul qarşıdurumunu təşkil edən tərəflərin məna çənbərlərinin nə cür sürətlə kəsişib vəhdət halında birləşdiklərinə diqqət edək. Dediklərimə sufi hədisindən bir örnək.

Bir gün adı əfsanəyə dönmüş, öz zahidliyilə şöhrətlənmiş İbrahim ibn Ədhəm (VIII əsr) bazardan bir qul alıb sarayına dönür. Bir qədər dincəldikdən sonra buyurur ki, qulu onun hüzuruna gətirsinlər. Qul gəlib İbrahimin qarşısında dayanan kimi sufi soruşur:

- Sənin adın nədir?

Qul həməncə sualı belə cavablayır:

- Necə çağırarsan, adım da o olar.

İbrahim bu dəfə xəbər alır:

- Sən nə yeyirsən?

Qul deyir:

- Nə verərsən, onu da yeyərəm.

İbrahim ibn Ədhəm əməllicə təəccüblənir:

- Onda de görüm, sən nə geyinirsən?

Qul fikirləşmədən deyir:

- Nə geydirərsən, onu da geyinərəm.

İbrahim hövsələdən çıxıb bərkdən səslənir:

- Yaxşı, bəs sən nə istəyirsən?

Qul təmkinini pozmadan yavaşca dillənir:

- Qul nə istəyə bilər?

İbrahim ibn Ədhəm bu sözləri eşidən kimi bayılıb yıxılır. Ailə üzvləri, xidmətçilər yığışıb can-fəşanlıq göstərirlər, onu ayıldırlar və soruşurlar:

- Ya İbrahim, qul sənə nə dedi ki özündən getdin?

İbrahim ibn Ədhəm cavabını ləngitmir, deyir:

- Mən ömrüm boyu özümü Allahıma qul hesab eləmişəm. Amma indi başa düşdüm ki, əsl qul olmaq nə deməkdir [Güder, N., 2011, c.56-64].

Bu sufi hədisindən aydınlaşdığı kimi insan hətta kölənin belə idealını axtarır. İdeal qul isə artıq adam deyil, mexanizmdir, silahdır, manqurtdur. Bəs tanrı nədir: Yeri, Göyü, kainatı, bir sözlə, sonsuzluqda nə varsa, hamısını yaradan müəllifdir, ucalardan ucada qərarlaşan substansiyadır. Məgər o həm də bir icraatçı, ideal kölə deyilmi? Bəyəm bütün dünya insanlarının arzularını siyahıya alıb da ədalət tərəzisinə uyğun yerinə yetirən, nəzir, qurban, dualarla razılığa gətirilən tanrını eyni zamanda kölə kimi təsnif etmək olmazmı?

Ən qəribəsi budur ki, Süni İntellekt öz keyfiyyətlərinə görə ideal kölədən də, tanrıdan da üstündür. Süni İntellekt, mobil telefon, internet əslində insanlara dini kitablar əvəzinə paylanmış nəsnələrdir, daha doğrusu, Süni İntellekt, mobil telefon, internet yeni nəsillərin dinidir, dini kitablarıdır və xalq kütlələri üçün tiryəkdir.

Süni intellekt yeni texnogen təriqətin tanrısıdır.

Əlbəttə, “tanrı” sözü bu kontekstdə Süni İntellektin metaforası kimi götürülməlidir.

Fikir verin, mobil telefon süni intellektin mikromodelidir və insan üçün kölə kimi çalışır, ona xidmət eləyir, səslə, xəfif toxunuşlarla idarə olunur. Di gəl ki, müəyyən müddətdən sonra insanın özü

ondan asılı vəziyyətə düşür, telefonla yatıb telefonla oyanır, özünü və dünyanı telefona yığır. Nəticə etibarı ilə o, insanın ruhuna, dünyagörüşünə, zövqünə, düşüncələrinə hakim kəsilir, haradasa tanrılaşır. “Tanrı” və “qul” sözlərinin məna tutumu bir-birinə yüklənir, bir-birinə diffuziya eləyir.

4. **İnsandan robota doğru: maksimal süniləşmə**

Bu, XXI əsrin mental və sosial-siyasi proseslərinin başlıca konseptidir. İdeal eyniləşdirmə, ideal təminat, ideal itaət, ideal komfort naminə canlılar cansızlarla əvəzlənir, quldarlığın ən ali formasına keçid planlaşdırılır, həyatdan razı qullar kütləsi formalaşdırılır. İnsan zehinsəl və fiziksəl mutasiyalar yolu ilə robot-köləyə yaxınlaşdırılır: avtomatlaşdırılmış sistemlərin köməyilə insanla robot arasındakı fərq minimuma endirilir.

*İnsan şəxsiyətsizləşdirilir!!!*

Bax, o zaman ortaya süni intellekt çıxır: ağlı var, dərrakəsi yox, bilgisi çox, şəxsiyyəti yox...

Nədir artifişl intelligens, yəni süni intellekt? Süni bilirik nədir: o nəsnə ki təbiətə aid deyil, insan beyninin, əməyinin və mədəniyyətinin məhsuludur, onu biz süni hesab eləyirik. Bəs intellekt? Bunu da bilirikmi? Haradasa başa düşürük nədir: di gəl ki, xırdalayanda çətinlik çəkirik. İntellekt, yəni zəka insanın dərk etmək qabiliyyətidir və bu qabiliyyətin bütün aspektlərini özündə qapsayır: qavrayış, yaddaş, təsəvvür, təfəkkür, təxəyyül və hissiyyat. Odur ki, intellekt insanın çətinlikləri çözmək, mürəkkəb əməliyyatlar aparmaq bacarığı kimi dəyərləndirilir.

Süni zəka informatikanın bir bölümüdür və intellektual kompüter sistemlərinin yaradılması ilə məşğuldur. Aydın olsun deyə məlumatlandırım ki, intellektual kompüter sistemləri o sistemlərdir ki, insan ağlına mənsub funksiyaları yerinə yetirə bilirlər. Yeri gəlmişkən onu da söyləyim ki, süni intellektin belə təsnifatını amerikalı alimlər A.Barr və A.Faygenbaum XX əsrin sonunda fikirləşib tapıblar və bu təsnifata indiyə kimi heç kim heç nə əlavə etməyib, onu azacıq da olsa dəyişməyib [Barr, A., Feigenbaum E., 1981, p. 29-95].

Elə isə özünüz fikirləşin: yalnız insana verilmiş bu keyfiyyətlər yüksək elmi texnologiyaların köməyilə süni sistemlərə proyeksiya edilir, avtomatlaşdırılır və nəticə etibarı ilə maşınlar intellektə sahiblənir: daha doğrusu, süni ilə canlıya xas əlamətlər bir-birinə nüfuz edir. Süni intellekt, avtomatlaşdırılmış sistemlər artıq bugün insan fəaliyyətinin hər sahəsində lider mövqeyinə yiyələnir.

Robot uzunömürlü xidmət mexanizmidir: ideala yaxın bir konstruksiya olduğu üçün entropiyadan qorxmur. Həyat isə insan üçün əvvəldən axıra kimi entropiya ilə mübarizədir. Robotu belə bir aqibət gözləmir: çünki təbii qida qəbul eləmir, yalnız enerjilə kifayətlənir. Ona görə robot insandan ötrü həm də uzun ömürlü olmaq, əbədi qalmaq modelidir. İnsan robotdan öz xeyrinə faydalanmaq üçün onu intellektlə ödülləndirir. İntellektə sahiblənmiş maşın, yəni intellektual sistem başlayır insana xas yaradıcı funksiyaları yerinə yetirməyə, insanı əvəz etməyə, hətta avtomatlaşdırılmış sistemlər üçün proqramlar tərtibləməyə. Bununla da robot insana maksimal dərəcədə yaxınlaşdırılır, di gəl ki, şəxsiyyəti olmur.

Biz robotları əvvəlcə filmlərdə görmüşdük: yadplanetli məxluqlara oxşayırdılar; onlar kimi yeriyirdilər, onlar kimi danışırdılar. Ancaq hamıda, əgər düzünü deməyə qalarsa, şüuraltı səviyyəsində bu robotlara qarşı haradasa gizli bir aqressiya, neqativ bir münasibət “tumurcuqlamışdı”. Sonra onlara müvafiq formalar verib məişətimizə, mənzillərimizə yolladılar. İnsanlar robotlara isinişdilər, onları ağıllı maşınlar kimi qəbul eləyib sakitləşdilər.

Artıq “robot” sözü adi sözdür: heç kimi təəccübləndirmir. Hərçənd çox adamın xəbəri belə yoxdur ki, çex dilindən tərcümədə bu kəlmə “məcburi əmək” anlamına gəlir. Yəni robot müəyyən proqram üzrə çalışan, metal, plastik, şüşə fakturasından hazırlanmış cansız quldur, kölədir. Bu məna onun adında da kodlaşdırılıb. Robot-kölə hər şeyə qanedir, pis vərdişlərdən uzaqdır, heç nə istəmir, yorulmur, pul-para tələb etmir, etiraza qadir deyil, ideal xidmətçidir.

**5. Süni intellektin semantikasında apokalipsis anlayışı**

Süni İntellekt insan tərəfindən qul kimi düşünülüb, öyrədilib: funksiyası xidmət göstərməkdir. Burada insan həm yaradıcıdır, yəni tanrıdır, həm də istifadəçi. Beləliklə, bəşər tarixində qorxunc, dəhşətli, antihumanist bir devrim gerçəkləşir. Süni İntellekt və onunla bərabər bütün robotlar şüursuz icraatçılar ordusuna çevrilirlər, hər sahədə böyük intensivliklə, uğurla və keyfiyyət artımı ilə insanları əvəzləyirlər, onun vəzifə və funksiyalarını idealcasına gerçəkləşdirirlər. Nəticədə, robotlar, kiborqlar, maşınlar müasir qlobal cəmiyyəti formalaşdırır, harada ki artıq insana da, ekzistensional yaşantılara da, koqnitiv münasibətlərə də, humanizmə də yer yoxdur. İnsan cəmiyyətdən dışlanır, sanki qarışqa ilə eyniləşdirilir: heç kəsin evi yoxdur, hamı kirayədədir və hər bir adama, misal üçün Fransada 500 avroya 9 $m^2$-lik, Çində, Koreya və Yaponiyada isə yataqxana şəraitində bundan daha kiçik mənzil-yuva-türmə kirayə verilir. Nədir bunun səbəbi? Səbəb budur ki, dünya artıq insanlar üçün darısqal bir məkandır, insan öz eqosu, tələbatı, istəkləri ucbatından təbiətin nəinki bütün resurlarını tükədib, həmçinin öz dağıdıcı fəaliyyətilə Yeri, Göyü, Okeanı, torpağın altını və üstünü müxtəlif növ silahlarla yarıtmaz hala gətirib, balansı pozub, doğub törəyib və say etibarı ilə 8 milyarda çatıb, bütün digər canlıların yaşam arealını zəbt edib.

Belə bir faciəvi situasiya qarşısında insanın xilas yolu varmı? Bəli, var, ancaq insan xilas olmaq üçün robotlaşmalıdır, manqurt olmalıdır. Bu, sistemin tələbidir. Əslində, bu, antixilasdır, bir insan kimi öz sonuna imza atmaqdır, şəxsiyyətilə, xixslətilə vidalaşmaq deməkdir. İnsanın robotlaşma prosesi kütləvi çipləşdirilmə ilə başlanır. Artıq Amerika Birləşmiş Ştatlarında yüzlərlə insan guya ki könüllü surətdə çipləşdirilib.

Kütləvi çipləşdirmə isə saysız qul-robot-insan ordusu anlamına gəlir.

Mənim söylədiklərimin analoji variantlarını Hollivudun və dünyanın digər kinomərkəzlərinin 2000-ci illərdən üzü bu yana istehsal etdiyi çoxsaylı və müxtəlif janrlı filmlərdə aşkar görmək mümkündür. Hədəf insanın beyni və psixo-koqnitiv münasibətləridir. Psixo-koqnitiv funksiyalar neytrallaşdırılan kimi insan robota dönüşür. Busa artıq antihumanizmdir və bunu durduracaq bir mexanizm də yoxdur. İnsan robota, qidalar isə həbb və iynələrə transformasiya olunur, təbiət mumiyalaşdırılır. İnsan olmağı tərgitmək, duyğulardan, koqnitiv əlaqələrdən, psixi yaşantılardan imtina etmək, yəni robot olmaq – bu, bəşəriyyətin yeganə, alternativsiz çıxış yoludur, müasir trendidir və mütəmadi şəkildə uzun illərdir ki, insanlara təlqin edilir. Ədəbiyyat, o nəsnə ki, insanlara insanlığı, humanizmi öyrədirdi, indi cəmiyyətin periferiyasına atılıb: heç kimə lazım deyil. Əvəzinə Süni İntellekt roman, hekayə, pyes, ssenari və nə sifariş etsən yazır ki, onlar da darıxdırıcılıq ucbatından bir kimsəni mardaqlandırmır, nədən ki emosiyaların alqoritmi hər insanda barmaq izləri kimi fərqlidir.

Bayaq Hollivudun, ən böyük film istehsalçısının, adını çəkdim. Hal-hazırda bu “xülyalar fabriki” Süni İntellekt ucbatından öz prioritetlərini itirmək və çökmək üzrədir. Süni İntellekt gücləndikcə, onun imkanları genişləndikcə digər fəaliyyət sahələrini də eyni aqibət gözləyir. İşsizlik

dünyada baş alıb gedəcək, heç kimə lazım olmayan işsizlər-avaralar kütləsi meydana gələcək ki, onların da robotlaşması prosesi asanlaşacaq, millətlər, xalqlar rəngli inqilabların köməyilə bir-birinə qarışdıralacaq, qlobal cəmiyyət-türmə yaradılacaq. Bu da insanları mühüm bir dilemma qarşısında qoyacaq: ya ölmək, ya da robot kimi yaşamağı qəbul etmək. Beyinlərin yuyulması prosesi insanları robotlaşma ilə yaxın zamanlarda barışdıracaq.

Amma və lakin... bunu faciə kimi qəbul etməyinə dəyərmi? Düşünürəm ki, yox. İnsan özü öz aqibətini məhz bü sayaq müəyyənləşdirib, planlaşdırıb. Məgər Süni İntellektin rüşeymlərini hələ XVII əsrdə mexaniki materializm tərəfdarları elmi dövriyyəyə daxil etməmişdilərmi? Bəyəm hələ XVII əsrdə Dekart canlıları mexanizm, XVIII əsrdə isə Lametri insanı maşın [Леденева, Е., 2010, c.24-27] adlandırmamışdımı? Təəccüblənməyinə dəyməz: məgər bədən və dünya rejimlə yaşamır? Yaşamaa istəyirsən, rejimi gözləməlisən. Bunula da silsilə tamamlanır; maşın-insan robot-insana dönüşür, insan təfəkkürü maşın təfəkkürü ilə əvəzlənir və dünya bəyan edilməmiş şəkildə bu dəyişikliklərə hazırlaşır, ölkələr, xalqlar, millətlər qarışdırılır, hər yerə xaosa gömülür, inqilab, müharibə kabusu külli-aləmi bürüyür, qaçqınlar, köçkünlər sərhədlərdə qırğınlardan qaça-qaça sürünür. Bu xaos insanları steril sahmanla barışdırmaq, çipləşdirmə yolu ilə onları robotlaşdırıb anti-həyata gətirmək, idealcasına sahmanlaşdırılmış "modern qullar dünyası" [Talıbzadə, A., 2023, c.3] yaratmaq məqsədi güdür. Bu prosesin dirijorlarının əsas silahı Süni İntellektdir. Hal-hazırda Çində "Starlink" peyk internetindən daha sürətli "Kvant" İnterneti və buna uyğun çox sürətli kompüterlər artıq bazara çıxarılmaq üzrədir, hansılar ki, Süni İntellektin imkanlarını fantastik həddə çatdıracaq. Busa o deməkdir ki, yaxın 20-25 ildə, bəlkə də daha tez, Süni İntellektin köməyilə bir çox ictimai institutlar, hər cür şərti definisiyalar aradan qaldırılacaq, milliyyətsiz, şəxsiyyətsiz, mənəviyyatsız, prinsipsiz cəmiyyət cəmi iki zümrəyə – kukla-robot və kuklaçı-əjdəhalara bölünəcək, insani başlanğıcın hər bir təzahürünün qarşısı həməncə alınacaq, xəta törətmiş kukla-robot-insan isə anındaca çipin köməyilə məhv ediləcək, əvəzinə sürətlə yenisi yaradılacaq və kosmik transportasiya üçün start veriləcək. Bu, bəşər tarixinin ən qəddar quldarlığı kimi təsnifat qazanacaq: robot-kosmos müstəmləkəçiliyi başlayacaq və proses axirət gününədək uzanacaq!

Amma və lakin...

Yəqin çoxlarının xatirindədir ki, XX əsrin sonu XXI yüzilin əvvəllərində Axirət gününün yaxın olması ilə əlaqədar bütün dünyada bir çox fikirlər dolaşmaqda idi: hətta bir çox insanlar həmin günə hazırlıq da görürdülər. Elə bu çağlarda mənim filosof dostum İskəndər Tağıyev 2012-ci ildə nəşr ediləcək "Apokalipsis: bu, fəlakət deyil, bəşərin transformasiyasıdır" [Тагиев, И., 2012, c.5] əsərinin mühüm ideyalarını ortaya qoydu və Y.P.Blavatskayanın tədqiqatlarına, qədim hindlilərin və qədim mayyaların təqvimlərinə söykənərək göstərdi ki, insanlığın yaşadığı indiki Kali Yuqa dönəmi sonuncudur: di gəl ki, Apokalipsis deyil; idrakın, şüurun tamam başqa bir səviyyəyə varmasıdır. Elə bir səviyyəyə varmasıdır ki, burada insanlıq özünü astral dünyaya transportasiya eləyir. Süni intellekt və robotlaşma olmadan bu mümkünsüzdür. Robotlara isə tarix və koqnitiv münasibətlər lazım deyil. XXI əsr tarixin sonuncu əsrindən insanlığı robot-manqurtlar formatında əbədiyyətə götürəcək.

**Ədəbiyyat siyahısı:**

1. Ницще, Ф. (1913). Так говорил Заратустра. – СПб, «Типографское дело», 374 с.
2. Фукуяма, Ф. (2015). Конец истории и последний человек. – М.: АСТ, 260 с.

3. Evon, D. (2018). Did Albert Einstein Say World War IV Will be Fought 'With Sticks and Stones'? // https://www.snopes.com/fact-check/einstein-world-war-iv-sticks-stones/ (12.02.2025)
4. Güder, N. (2011). İbrahim Edhem destan. – Konya, Egitim akademi, 112 s.
5. Barr, A., Feigenbaum E. (1981). Handbook of Artificial Intelligence. – Stanford University, Butterworth-Heinemann, 412 p.
6. Леденева, Е. (2010). Человек-машина (между Ламетри и Декартом). Credo New, №3, с. 24-35.
7. Talıbzadə, A. (2023). Süni İntellekt: ideal itaət apologiyası. Ədəbiyyat, №35, s. 3-4.
8. Тагиев, И., (2012). Апокалипсис. Не гибель, а трансформация человечества. – М.: ООО ИПЦ «Маска», 288 с.